Yaqut ABDULLAYEVA,
ADMİU-nun dosenti,
əməkdar artist



# Əbülfət Əliyev və xalq mahnılarımız

Təkrarolunmaz bir deyim var. Sanki ölməz xanəndə Əbülfət Əliyevin ünvanına söylənib.

Əsl sənətkar ölmür. O, nəğmələriylə, muğam və təsnifləriylə yaşayır. Musiqisevərlərin yaddaşında qoyub getdiyi möhtəşəm sənət abidələri ilə ürəklərdə özünün əbədi heykəlini ucaldır...

Klassik muğamlarımızın, xalq mahnı və təsniflərimizin mahir ifaçısı kimi tanınan respublikamızın xalq artisti Əbülfət Əliyev həmişəyaşar Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov kimi ustad sənətkarların xanəndəlik məktəbinin gözəl ənənələrini davam etdirənlərdən biridir.

Əbülfət Əliyev öyrənə-öyrənə özü də ustalaşıb, doğulduğu torpağın (Şuşanın-Qarabağın) ad-sanını, şan-şöhrətini respublikamızın hüdudlarından çox-çox uzaqlarda ucaldan, milli musiqimizi təbliğ və tərənnüm edən, onu sevdirən sənətkardır.

O, muğamlarımızı dərindən bilir, onları canından əziz tuturdu. Əbülfət məharətlə oxuduğu "Rast", "Segah-zabul", "Şur", "Mahur-hindi", "Bayatı-Şiraz", "Cahargah", "Humayun" və başqalarını şirin nəfəslərlə, zərif boğaz gəzişmələri, incə xırdalıqlarla tamaşaçılara, dinləyicilərə çatdırırdı. Ustad xanəndə deyərdi: «Sənəti yaşatmaq, onu qoruyub saxlamaq lazımdır. Əgər ona diqqətsizlik olsa, sönüb gedər». O, muğam və təsniflər üçün musiqinin ruhuna uyğun qoşmalar, qəzəllər, bayatılar seçirdi ki, bu da dinləyicidə xoş əhval-ruhiyyə oyadırdı.

Əbülfət Əliyev xalq mahnılarının da əvəzolunmaz ifaçısıdır. O, istədiyi xalq mahnısının köhnəlmiş, məzmunsuz sözlərini dəyişərək, yeni sözlərlə bəzəyir, onlara təzə həyat verirdi. Xanəndə asanlıqla dinləyici ürəyinə yol tapır, özünün yüksək mədəniyyəti ilə seçilirdi.

Əbülfət bəstəkar mahnılarını da eyni məharətlə, gözəl ifa edirdi: C.Cahangirovun «Sən gələndə», Qənbər Hüseynlinin «Tel nazik», «Ay qız», «Gəlmədin», Qulu Əsgərovun «Pəncərəni səhər durub açanda», Səid Rüstəmovun «Bahar nəğməsi», «Ala göz», Ağası Məşədibəyovun «Naz olaydı», Zöhrab Abdullayevin «Olmaz-olmaz», həvəskar bəstəkar Hacıbaba Həsənovun «Ellər gözləyir», «Eşqimin növrağı», «Bu yerdə», «Yağma yağış», «Gecələr yuxusuz qoymusan məni» (Şahnaz təsnifi) mahnılarını da eyni şövqlə oxuyurdu. O, mahnılara, muğam və təsniflərə özünün sənət «möhürünü» vurmuşdur. Ona görə də Əbülfət Əliyev bu mahnıların yeganə və təkrarolunmaz ifaçısı sayılır.

Unudulmaz xanəndəmiz həqiqətən muğam ustasıdır. Muğamların hamısını eyni məhəbbətlə, şövqlə, ustalıqla oxuyub. İstedadlı musiqişünas Firudin Şuşinski yazırdı: «Əbülfət Əliyev heç bir süni effektə uymur, səs ölçüsündən heç vaxt kənara çıxmır, istər muğam və təsnifləri, istərsə də el nəğmələrini və bəstəkar mahnılarını öz qaydasında, ölçülüb-biçilmiş halda dinləyiciyə çatdırır. Klassik və müasir şairlərin şer və qəzəllərindən istifadə etməkdə mahirdir»...

Sənətkarın yaradıcılıq yolunu araşdırarkən bir faktı da qeyd etmək yerinə düşər.

Görkəmli muğam ustası Seyid Şuşinskidən müasir xanəndələr içərisində kimi bəyəndiyini soruşduqda, yalnız Əbülfətin adını çəkər və həmişə deyərdi: «Əbülfət ona görə xoşuma gəlir ki, həm düzgün, həm də təsirli oxuyur. Onun ifasında Rast muğamı düzgünlük və mərdlik rəmzi kimi səslənir».

Qısa tanışlıq: Əbülfət Əliyev 1926-cı ilin dekabrın 30-da Azərbaycanın musiqi beşiyi sayılan Şuşa şəhərində anadan olub. Ailənin ilk övladı olan Əbülfət dünyaya gəldiyi gündən ailəsinə sevinc gətirmişdi. Atasının ürəyinə dammışdı ki, Əbülfətin gələcəyi parlaq olacaq, özünün qeyri-adi istedadı ilə məşhur bir adam kimi tanınacaq... Şuşanın Cıdır düzündə, Daşaltında, İsa bulağında «atını çapırdan» balaca Əbülfət əsl uşaqlıq günlərini yaşayırdı. Amma bu günlər çox çəkmədi...

Əbülfətin atası dünyadan tez köçdü. Ailənin ağırlığı gənc ananın (Mülayimin) üzərinə düşdü. Onlar atasızlığın ağırlığını dərk edərək, naçar qalıb 4 uşaqla Ağdama köçürlər.

Əbülfət xanəndəlik sənətinə Ağdamda yiyələnir. O, Xan Şuşinskinin Ağdam Müəllimlər evində rəhbərlik etdiyi muğam sinfində iştirak edir, sonralar Xan əmi Bakıya getdiyindən həmin muğam sinfi Ağdam şəhər pionerlər evinə köçürülür. O zaman Ağdamda tanınan məşhur muğam ustası Bahadur Mehrəliyev Əbülfətin səsini yoxlayıb, onda olan bacarığa, səsindəki şirinliyə, zəngulələrə heyran qalır və uşağa böyük qayğı göstərir. Bir müddət Əbülfət pionerlər evində muğamın sirlərini öyrənir. 1944-cü ildə Ağdamda uşaq bədii övfəaliyyət kollektivlərinə baxış-müsabiqə keçirilir. Baxış-müsabiqədə Bakıdan gəlmiş nümayəndələr də iştirak edirdi. Tədbirdə yalnız Əbülfət qalib çıxır... Onu Bakıya dəvət edirlər...

1945-ci ildə Əbülfət Bakıya gəlir. Bir müddət Azərbaycan radiosunda solist işləyir, sonra M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında çalışmağa başlayır. O, Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Şövkət Ələkbərova, Sara Qədimova, Tükəzban İsmayılova, Fatma Mehrəliyeva kimi sənətkarların əhatəsində idi. Bu xanəndələr gözəl ifaçı olduqları kimi, həm də böyük şəxsiyyət olaraq şöhrət tapmışdılar. Onlar gənc Əbülfətə böyük



*Məqaləmizdə Əbülfət Əliyev yaradıcılığına müraciət edəcək, onun həmişə seçilən, diqqətçəkən özünəməxsus ifa tərzindən söhbət açacağıq. Bəri başdan qeyd edək ki, mahir muğam ustası kimi şöhrət qazanan unudulmaz sənətkarımız xalq mahnılarının əvəzolunmaz ifaçısı kimi tanınır, bəstəkar mahnılarını da eyni şövq və məharətlə oxuyurdu.*

rəğbət bəsləyir, ona qayğı ilə yanaşırdılar.

Əbülfət özü ilə bərabər səhnəyə bir yenilik gətirmişdi. Belə ki, Əbülfətə qədər bəzi xanəndələr mahnı oxumağa fikir vermirdilər. Onlar mahnının sözlərini bər-bəzəksiz, quru, xırdalıqsız oxuyurdular. Əbülfət isə mahnının hər sözünü aydın, incə, zərif boyalarla, şirin nəfəslərlə bəzəyə-bəzəyə oxuyurdu. Ən yaxşı cəhət o idi ki, gənc xanəndə səhnəyə şuxluq, mahnı ifaçılığına təravət gətirdi.

Əbülfət Əliyev sənətinin böyüklüyündən, onun əvəzolunmaz xanəndə kimi ümumxalq məhəbbəti qazanmasından, eləcə də bəstəkar-xanəndə kimi görkəmli bir yer tutmasından danışmaq yerinə düşər. Bəzi dinləyicilərimiz bilmirlər ki, görkəmli xanəndənin xalq mahnıları adı ilə oxuduğu «Xal yanağında» , «Könül», «Qaşıgözü qara qız», «Qaşları kamandır», «Ay qız», «Mənim ürəyim», «Ay gecikən məhəbbətim», «Gizlətmə günəş üzünü», «Tel oynasın», «Aşiqəm», «Əcəb nurlu gecədir» mahnılarının musiqisi Əbülfətindir. Bundan başqa «Bəstə-nigar», «Şüştər» və «Bayatı-Şiraz» təsniflərinin musiqisi də onundur. O, bu mahnı və təsniflərin sözlərini bayatılardan, M.P.Vaqifin, Aşıq Ələsgərin, Aşıq Qurbanın, M.Rahimin, Əliağa Vahidin şerlərindən seçmişdir.

Görkəmli xanəndə filarmoniya səhnəsində uğurla çıxış etdiyi kimi, Azərbaycan opera səhnəsində də gözəl obrazlar yaratmışdır. Bilirik ki, Məcnun rolunu ilk dəfə oynayan Hüseynqulu Sarabskidir. Ondan sonra operaya Məcnun rolunun yeni, bacarıqlı, yaddaqalan, təkrarolunmaz ifaçısı da meydana gəldi. Sevimli bəstəkarımız Fikrət Əmirov Əbülfətin Məcnununu görəndən sonra demişdir: «Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasında baş rollarda çox ifaçı görmüşəm. Sözün açığı, Əbülfətlə Rübabənin oynadığı Leyli və Məcnun rollarından aldığım zövqü heç birindən ala bilməmişəm».

«Leyli və Məcnun»da Əbülfətin tərəf müqabili, Leyli rolunun ifaçısı, görkəmli müğənni Sara xanım Qədimova öz fikrini belə bildirirdi: «İndiki Məcnunlar məndən inciməsinlər, əvvəla, hər gülün bir ətri var... Amma Əbülfət elə bil Məcnun yaranmışdı!

Əbülfətin bal kimi şirin səsi vardı, qəzəlləri çox gözəl tələffüz edirdi. O, öz üzərində çox işləyən, tələbkar bir müğənniydi.

Əbülfətin çox gözəl yoldaşlığı vardı. Onunla dəfələrlə xarici ölkələrdə qastrol səfərlərində olmuşam. Qvineya, Hana, İraq, Suriya, Nigeriya, Livan, ADR və başqa ölkələrdə Azərbaycan musiqisinin təbliğində Əbülfətin böyük rolu olmuşdur. O, gözəl bir sənət yoldaşı kimi, yaxşı insan, səmimi dost, etibarlı yoldaş kimi də həmişə xatırlanacaqdır».

1971-ci ildə Moskvada 155 ölkədən gəlmiş sənətkarların iştirakı ilə keçirilən VII Ümumdünya musiqi konqresində Əbülfət Əliyev Azərbaycan professional musiqi ifaçılığını ləyaqətlə təmsil etmişdi.

Dünya musiqisinin bu mötəbər məclisində SSRİ xalq artisti, dünya şöhrətli bəstəkarımız Qara Qarayevin neçə-neçə xanəndə arasından məhz Əbülfəti seçib bəyənməsi onunla bağlı idi ki, uzaqgörən bəstəkar müşahidə edib görmüşdü ki, Əbülfət xalq musiqi mədəniyyətinə çox yüksək dərəcədə yiyələnmiş, öz ifaçılq qabiliyyəti ilə milli musiqimizə yeniliklər gətirmişdir. Böyük bəstəkarımız yanılmamışdı. İstedadlı xanəndə Ümumdünya musiqi konqresində yüksək ifaçılıq bacarığı göstərdiyinə görə YUNESKO-nun döş nişanı və diplomuna layiq görülmüşdü. Onun məlahətli səsi Ümumittifaq radiosu ilə bütün dünyaya yayılmışdı.

Xalqımız 50 ildə Əbülfəti əlində qaval muğam, mahnı oxuyan görüb. O, oxuduğu mahnılarıyla ruhumuzu, zövqümüzü oxşayan mahir bir sənətkar olub. Xanəndəlik sənətində qaval vurmaq çox böyük məharət tələb edir. Əbülfətin qaval çalmağı ayrı aləmdir, onu heç kim təkrar edə, heç kəs onu təqlid edə bilməz.

Əbülfətin ölümü onun pərəstişkarları üçün böyük itki idi. Bu itkinin ağrısını şair Məmməd Namaz «Ölmür» adlı şerində çox təsirli ifadə edibdir:

*Sevgi də əbədi deyilmiş demə,*
*O hansı çiçəkdir*
*Vaxtında solmur.*
*Səsini dinlədim, kövrək səsini*
*Yaxşı ki, nəğməni*
*Dəfn etmək olmur.*

Bəli, əsl sənətkar ölmür. O, nəğmələrində, muğamlarında yaşayır. Əbülfətin əziz xatirəsi Onu sevənlərin qəlbində daim yaşayır və yaşayacaqdır.

Əbülfət Əliyevin həyat və yaradıcılığı haqqında elm, mədəniyyət və incəsənət xadimlərimiz, şair və yazıçılarımız geniş söhbət açmış, gənc müğənniləri bu böyük sənətkarın çoxşaxəli fəaliyyətindən bəhrələnməyə səsləmişlər. Bunlar arasında xalq mahnıları xüsusi yer tutur.

Həyatın fərəh və sevincini hər birimiz bu mahnılarla dadmış, ağrı-acılarını mahnılarla unutmuşuq.

**Ədəbiyyat**

1. Ü.Hacıbəyov. Azərbaycan xalq musiqisinin əsasları. Əsərləri, c.2.B.1965.
2. B.Vahabzadə. Nəğmələrimiz. («Sadəlikdə böyüklük» kitabında). B.1978.
3. M.İsmayılov. Azərbaycan xalq musiqisinin janrları. B.1960.
4. Əbülfət Əliyev. ASE, c.4. B.1980.
5. M.Mahmudova. Mahir muğam ustası. "Azərbaycan mədəniyyəti və incəsənəti" qəzeti, 21 fevral 2004-cü il.